# Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi

## ƏMRDƏN ÇIXARIŞ

**№ 06**

Bakı şəhəri — 26 yanvar 2022-ci il

**"İxtira, faydalı model, əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunələrinə dair iddia sənədlərinin qeydiyyata alınması, sənədlərin və məlumatların Əqli Mülkiyyət Hüquqlarının Avtomatik İdarəolunması Sisteminə (IPOA) və Patentlərə və Əmtəə Nişanlarına Açıq Hədəf (PƏNAH) informasiya sisteminə daxil edilməsi, istifadəsi və mühafizəsi haqqında Təlimat"ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi üzrə verilmiş 2020-ci il 8 oktyabr tarixli 55 nömrəli Əmrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsinin 4.8.5-ci yarımbəndini rəhbər tutaraq əmr edirəm:

1. "İxtira, faydalı model, əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunələrinə dair iddia sənədlərinin qeydiyyata alınması, sənədlərin və məlumatların Əqli Mülkiyyət Hüquqlarının Avtomatik İdarəolunması Sisteminə (IPOA) və Patentlərə və Əmtəə Nişanlarına Açıq Hədəf (PƏNAH) informasiya sisteminə daxil edilməsi, istifadəsi və mühafizəsi haqqında Təlimat" təsdiq edilsin (əlavə olunur).

2. Agentliyin Kadrlar şöbəsi bu Əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

**Əsas:** Agentlik üzrə verilmiş 2020-ci il 8 oktyabr tarixli 55 nömrəli Əmr və Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru X.Həsənlinin xidməti məktubu.

**İdarə Heyətinin sədri** — **Kamran İmanov**

*Əsli ilə düzdür:*
*Kadrlar şöbəsinin müdiri* — *Ü.Xasayeva*

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi KADRLAR ŞÖBƏSİ

*Xidməti istifadə üçün*

**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2022-ci il 26 yanvar tarixli 06 nömrəli Əmri ilə təsdiq edilmişdir**

# İxtira, faydalı model, əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunələrinə dair iddia sənədlərinin qeydiyyata alınması, sənədlərin və məlumatların Əqli Mülkiyyət Hüquqlarının Avtomatik İdarəolunması Sisteminə (IPOA) və Patentlərə və Əmtəə Nişanlarına Açıq Hədəf (PƏNAH) informasiya sisteminə daxil edilməsi, istifadəsi və mühafizəsi haqqında

# TƏLİMAT

## 1. Ümumi müddəalar

**1.1.** Bu Təlimat ixtira, faydalı model, əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunələrinin (bundan sonra - **sənaye mülkiyyəti obyektləri**) qeydiyyatı ilə bağlı Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə (bundan sonra-**Agentlik**) daxil olan iddia sənədlərinin, o cümlədən iddia sənədlərinin verilməsi barədə ərizələrin, iddiaçıların (onların rəsmi nümayəndələrinin (patent müvəkkili daxil olmaqla) vəsatətlərinin, iddia sənədinə dair əlavə materialların, iddiaçılara göndərilən ekspertiza sorğularının və bildirişlərinin, habelə onlara cavabların qeydiyyatı, iddia olunan obyektin qeydiyyata alınması və ya qeydiyyatından imtina barədə qəbul edilmiş qərarların **(bundan sonra-Sənədlər və məlumatlar)**, sənaye mülkiyyəti obyektlərinin axtarışı üçün açar sözlərin (iddia olunan obyektlərin adlarının və ya onların tərkib hissəsi olan işarələrin) Əqli Mülkiyyət Hüquqlarının Avtomatik İdarəolunması Sisteminə (bundan sonra - **IPOA**) və Patentlərə və Əmtəə Nişanlarına Açıq Hədəf informasiya sisteminə (bundan sonra - **PƏNAH)** yerləşdirilməsi, **Sənədlərin və məlumatların IPOA** və **PƏNAH** sistemlərinə daxil edilməsi müddəti, həmin məlumatların silinməsinin, dəyişdirilməsinin və ya üçüncü şəxslərə ötürülməsinin qarşısının alınması ilə bağlı mühafizənin təşkili, **IPOA** və **PƏNAH** sistemlərində işlərin koordinasiyası, istifadəçilərin dairəsi, səlahiyyətləri, istifadənin şərtləri və bu sahədə nəzarətin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir.

**1.2. IPOA** və **PƏNAH** sistemlərinə sənədlər və məlumatlar daxil edilərkən, habelə digər istifadə hallarında "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunlarının, həmin qanunlara uyğun olaraq qəbul edilmiş normativ hüquqi aktların (bundan sonra - **qanunvericilik aktları**) və bu Təlimatın tələbləri nəzərə alınmalıdır.

## 2. IPOA və PƏNAH sistemlərinin iş prinsipləri

**2.1. IPOA** və **PƏNAH** sistemləri aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

**2.1.1.** sənaye mülkiyyəti obyektlərinə hüquqların əldə edilməsi sahəsində şəffaflığın və hesabatlılığın artırılması;

**2.1.2.** Sənədlərin və məlumatların **PƏNAH** sisteminə daxil olduğu və ya yerləşdirildiyi, o cümlədən **IPOA** sistemindən **PƏNAH** sisteminə (və ya əksinə) ötürüldüyü andan başlayaraq icra prosesinin bütün mərhələlərinin qarşılıqlı olaraq "izlənilməsi"nə və iddiaçı məmnunluğuna nail olunması;

**2.1.3.** eyni və ya oxşar əmtəə nişanlarının, habelə saxta və yanlış mənşəyi ifadə edən coğrafi göstəricinin qeydiyyatının qarşısının alınması üçün daha əvvəl qeydiyyata alınmış nişanlar (coğrafi göstəricilər) və ya ekspertiza prosesində olan iddia sənədləri barədə məlumatlara şəffaf prosedurlar əsasında əlçatanlığın təmin edilməsi.

## 3. Sənədlərin və məlumatların IPOA və PƏNAH sistemlərinə daxil edilməsi

**3.1.** Sənaye mülkiyyəti obyektinin qeydiyyatı ilə bağlı iddia sənədi Agentliyə birbaşa iddiaçının özü və ya səlahiyyətli nümayəndəsi tərəfindən təqdim oluna, yaxud **PƏNAH** sistemi ilə online rejimdə, yaxud poçt və ya elektron poçt vasitəsi ilə göndərilə bilər.

**3.2.** Sənaye mülkiyyəti obyektinin qeydiyyata alınmasına dair ərizədə aşağıda göstərilən çatışmazlıqlar aşkar edildikdə, onun qeydiyyata alınmasından imtina olunur:

**3.2.1.** əmtəə nişanının qeydiyyata alınması barədə elektron imza, asan imza və elektron hökumət sistemi tərəfindən vətəndaşa verilmiş istifadəçi adı və şifrə ilə **PƏNAH**-a daxil olan sənədlər və məlumatlar istisna olmaqla ərizə imzalanmadıqda (iddiaçı hüquqi şəxs olduqda həm də möhürlə təsdiq edilmədikdə);

**3.2.2.** yazışma üçün ünvan, əlaqə telefonları, e-mail ünvanı (olduğu halda) göstərilmədikdə və ya natamam göstərildikdə;

**3.2.3.** İddiaçının, müəllifin, rəsmi nümayəndənin (iddia sənədi nümayəndə vasitəsi ilə verildikdə) soyadı, adı, atasının adı və ərizə nümunələrində qeyd edilən digər zəruri məlumatlar göstərilmədikdə.

**Qeyd:** *bu Təlimatın 3.2.1, 3.2.2 və 3.2.3-cü yarımbəndlərinin tələblərinə uyğun olmayan ərizə iddiaçı və ya onun rəsmi nümayəndəsi tərəfindən* ***PƏNAH*** *və ya* ***IPOA*** *sistemlərinə yükləndikdə həmin sistemlər tərəfindən "qəbul" olunmayacaqdır.*

**3.3.** Bu Təlimatın 3.2-ci bəndində göstərilən hallardan başqa ərizənin və ona qoşulan iddia sənədinin qəbul edilməməsi qadağandır.

Sənaye mülkiyyəti obyektinin patentləşdirilməsi barədə nümunəsi Agentliyin İdarə Heyətinin sədrinin 2020-ci il 1 iyun tarixli 33 nömrəli əmri ilə təsdiq edilmiş "Patentin alınması üçün ərizənin doldurulması və təqdim edilməsi Qaydası"nda və əmtəə nişanı və coğrafi göstəricinin qeydiyyatı ilə bağlı "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 5-ci və 6-cı hissələrində müəyyənləşdirilmiş tələblərə uyğun gələn ərizənin Agentliyə daxil olduğu (təqdim edildiyi) tarix iddia sənədinin verildiyi tarix sayılır.

**3.4.** Ərizə birbaşa təqdim edildiyi hallarda bu Təlimatın 3.2-ci bəndində göstərilən çatışmazlıqları yerində aradan qaldırmaq mümkün olmadıqda iddia sənədinin Agentliyə verilmə tarixinin düzgün tərtib edilmiş ərizənin təqdim edildiyi tarixdən sayılacağı barədə onu təqdim edən şəxsə nümunəsi bu Təlimata Əlavə 1-də göstərilən yazılı bildiriş verilir. Bildirişin surəti həmin şəxs tərəfindən imzalanır və Agentliyin Ümumi şöbəsinin Sənədlərin icrasına nəzarət sektorunun əməkdaşı (bundan sonra-**İcraçı**) tərəfindən ekspertizanı keçirən Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin **(bundan sonra-Mərkəz)** aidiyyəti struktur bölməsinə təhvil verilir.

**3.5.** Bu Təlimatın 3.2-ci bəndində göstərilən çatışmazlıqlar elektron poçt vasitəsi ilə daxil olan ərizədə (elektron imza, asan imza və elektron hökumət sistemi tərəfindən vətəndaşa verilmiş istifadəçi adı və şifrə ilə PƏNAH-a daxil olan ərizə istisna olmaqla) aşkar edildikdə onun qeydiyyatının rəsmiləşdirilmədiyi və iddia sənədinin verilmə tarixinin düzgün tərtib edilmiş ərizənin Agentliyə daxil olduğu tarixdən sayılacağı barədə iddiaçıya (və ya səlahiyyətli nümayəndəsinə) nümunəsi bu Təlimata Əlavə 1-də göstərilən yazılı bildiriş göndərilməlidir.

**3.6.** İddia sənədini **IPOA** və **PƏNAH** sistemlərinə yerləşdirən İcraçı tərəfindən yalnız iddia sənədinin qoşulduğu ərizənin düzgün doldurulub-doldurulmadığı, həmçinin imzalanıb-imzalanmadığı yoxlanılır. Ərizəyə qoşulan iddia sənədinin və ona dair sonradan daxil olan (təqdim edilən) materialların düzgünlüyü isə ekspertiza mərhələlərində ekspertizanı həyata keçirən Mərkəzin müvafiq struktur bölmələri tərəfindən araşdırılır.

**3.7.** Düzgün tərtib edilməmiş ərizənin qeydiyyatından imtina iddia sənədinin yenidən təqdim edilməsinə mane olmur. İddiaçı və ya onun rəsmi nümayəndəsi bu Təlimatın 3.2-ci bəndində göstərilən çatışmazlıqlar aradan qaldırıldıqdan sonra iddia sənədini Agentliyə yenidən göndərə (təqdim edə) bilər. Bu halda, ərizədə onun Agentliyə yenidən göndərildiyi (təqdim edildiyi) tarix yazılmalıdır.

**3.8.** İlkinliyin müəyyən edilməsi məqsədi ilə Sənədlər və məlumatlar Agentliyə daxil olduğu gün İcraçı tərəfindən tam tərkibdə **IPOA** sisteminə və paralel olaraq **PƏNAH** sisteminə (və ya əksinə) yerləşdirilməlidir. Sənədlər və məlumatlar iş günü saat 17.00-dək **IPOA** sisteminə və paralel olaraq İcraçı tərəfindən **PƏNAH** sisteminə yerləşdirilir. Göstərilən saatdan sonra daxil olan iddia sənədləri ilkinlik tarixi Agentliyə daxil olduğu tarix hesab olunmaqla növbəti iş günü paralel olaraq hər iki sistemə yerləşdirilməlidir.

**3.9.** Sənədlərin və məlumatların Azərbaycan Respublikasının Əmək Məcəlləsi (bundan sonra - Məcəllə) ilə müəyyən edilmiş istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri, ümumxalq hüzn günü və ya iş günü başa çatdıqdan sonra Agentliyə daxil olması, pandemiya ilə əlaqədar, habelə texniki və digər səbəblərdən **IPOA** sisteminə və paralel olaraq **PƏNAH** sisteminə (və ya əksinə) yerləşdirilməsi mümkün olmadıqda, həmin gündən (günlərdən) sonra gələn ilk iş günü İcraçı tərəfindən sistemlərdə yerləşdirilməli və müəyyən edilmiş prosedurlara uyğun olaraq icra üçün aidiyyəti üzrə ötürülməlidir. Bu halda da iddia sənədinin ilkinlik tarixi onun Agentliyə daxil olduğu tarix hesab olunur.

**3.10.** Sənədlərin və məlumatların **IPOA** sistemində və paralel olaraq **PƏNAH** sistemində yerləşdirilməsinə texniki nəzarəti **IPOA** və **PƏNAH** sistemlərinin inzibatçısı (bundan sonra- **Sistem inzibatçısı**), iddia sənədinin qoşulduğu ərizənin, iddia sənədlərinin tam tərkibdə bu Təlimatda müəyyən edilmiş qaydada və müddətlərdə yerləşdirilməsinə nəzarəti isə İcraçı həyata keçirir.

Bu bənddə müəyyən edilmiş prosedurların icrasına ümumi nəzarət Agentliyin İdarə Heyətinin sədrinin sənaye mülkiyyəti məsələləri üzrə məsul olan müşaviri tərəfindən aparılır.

**3.11.** Sənədlərin və məlumatların üzrsüz səbəblərdən İcraçı tərəfindən vaxtında **IPOA** sistemində və paralel olaraq **PƏNAH** sistemində yerləşdirilməməsi və ya tam olaraq yerləşdirilməməsi, həmçinin zəruri məlumatların **IPOA** sisteminə və paralel olaraq **PƏNAH** sisteminə daxil edilməsi ilə bağlı ekspertizanın funksiyalarına aid olan prosedurların yerinə yetirilməməsi və ya gec yerinə yetirilməsi qadağandır.

**3.12.** İddia sənədinin qoşulduğu düzgün tərtib edilmiş ərizənin birbaşa, poçt və ya elektron poçt vasitəsilə Agentliyə daxilolma tarixi ilə onun **IPOA** sistemində və paralel olaraq **PƏNAH** sistemində yerləşdirildiyi tarix arasında fərq olduqda, İcraçı tərəfindən tarixlər arasında fərqin yaranma səbəbləri göstərilməklə müvafiq arayış hazırlanır. Arayış Agentliyin rəhbərliyinin dərkənarı ilə Mərkəzə göndərilir.

**3.13.** Sənaye mülkiyyəti obyektinin Konvensiya ilkinliyi və ya sərgi ilkinliyi qanunvericilik aktlarında göstərilən qaydada müəyyən edilir.

**3.14.** **IPOA** sisteminə və **PƏNAH** sisteminə iddia sənədinin tərkibini təşkil edən aşağıdakı sənədlər və məlumatlar daxil edilir:

**3.14.1.** ixtira, faydalı model və sənaye nümunəsinə patent verilməsi barədə ərizə;

**3.14.2.** ixtiranın və ya faydalı modelin təsviri;

**3.14.3.** ixtiranın və ya faydalı modelin təsvirinə əsaslanan və mahiyyətini ifadə edən düsturu;

**3.14.4.** iddia olunan obyektin çertyoju;

**3.14.5.** ixtiranın və ya faydalı modelin referatı;

**3.14.6.** sənaye nümunəsinin fotoşəkili, maketi və ya rəsmi;

**3.14.7.** sənaye nümunəsinin çertyojları və erqonomik sxemi;

**3.14.8.** sənaye nümunəsinin mühüm əlamətlərini əks etdirən təsviri;

**3.14.9.** ixtira, faydalı model və sənaye nümunəsinin yaradılması barədə işəgötürənlə işçi arasında bağlanmış xidməti tapşırıq müqaviləsi;

**3.14.10.** ixtira, faydalı model və sənaye nümunəsi şərik müəlliflər tərəfindən birgə yaradıldıqda onlar arasında bağlanmış müəllif müqaviləsi;

**3.14.11.** ekspertiza prosesində iddiaçıya (onun nümayəndəsinə) göndərilən ekspertiza sorğusu və bildirişi, ekspertizanın nəticəsinə dair ekspertiza rəyi (qərarı);

**3.14.12.** ekspertiza sorğusuna və bildirişinə dair iddiaçının cavabları, onun (səlahiyyətli nümayəndənin) təqdim etdiyi sənəd və materiallar, vəsatətlər, habelə ekspertizanın aparılmasına görə xidmət haqqının ödənilməsi barədə sənəd;

**3.14.13.** iddia olunan obyekt üzrə ekspertizanın axtarış hesabatı;

**3.14.14.** əmtəə nişanı və coğrafi göstəricinin qeydiyyata alınmasına dair ərizə;

**3.14.15.** iddia edilən nişanın şəkli və ya üçölçülü forması;

**3.14.16.** iddia olunan əmtəələrin və xidmətlərin Əmtəələrin və Xidmətlərin Beynəlxalq Təsnifatı (bundan sonra - **Nitsa təsnifatı**) üzrə siyahısı;

**3.14.17.** nişanın və ya onun müəyyən hissəsinin transliterasiyası və tərcüməsi;

**3.14.18.** iddia edilən coğrafi göstəricinin işarəsi;

**3.14.19.** əmtəənin və ya xidmətin xüsusiyyətlərinin təsviri;

**3.14.20.** kollektiv nişanın nizamnaməsi, qeydiyyata alınması üçün vəkil edilmiş subyektin adı, kollektiv nişandan istifadə hüququ olan subyekt üzvlərinin siyahısı;

**3.14.21.** kollektiv nişanın aid ediləcəyi əmtəələrin və ya xidmətlərin siyahısı, onların vahid keyfiyyətinin və digər xüsusiyyətlərinin izahı;

**3.14.22.** əmtəə nişanının ilkinliyini təsdiq edən sənəd (iddiaçı və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən Agentliyə təqdim edildikdə);

**3.14.23.** iddiaçının göstərilən coğrafi obyektdə olması, iddia etdiyi əmtəəni, həqiqətən, həmin coğrafi ərazidə istehsal etməsi və ya xidmət göstərməsi barədə sənəd və yerli icra hakimiyyəti orqanının rəyi;

**3.14.24.** əmtəənin mənşə ölkəsində xarici iddiaçının iddia etdiyi coğrafi göstərici üzərində hüququnu təsdiq edən sənəd;

**3.14.25.** iddia olunan işarənin təsviri (olduğu halda);

**3.14.26.** iddia sənədi patent müvəkkili vasitəsilə verildikdə onun səlahiyyətlərini təsdiq edən sənəd.

**3.15.** Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı Agentliyə daxil olan iddia sənədlərində İcraçı və ya Agentliyin Ümumi şöbəsinin Sənədlərin icrasına nəzarət sektorunun işinə cəlb edilən Mərkəzin işçiləri tərəfindən düzəlişlərin, o cümlədən texniki düzəlişlərin aparılması qadağandır.

**3.16.** İddia sənədinin ekspertizası prosesində və ekspertizanın nəticələrinə dair iddiaçıya göndərilən sorğu, bildiriş və Müşahidə Şurasında təsdiq edilmiş ekspertiza rəyi (qərarı) **IPOA** və ya **PƏNAH** sistemləri vasitəsilə İcraçıya yönləndirildiyi tarixdən qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada iddiaçıya (onu təmsil edən nümayəndəyə (patent müvəkkilinə) göndərilməlidir.

**3.17.** İddia sənədlərinin elektron qaydada göndərilməsi, iddiaçı, yaxud onun rəsmi nümayəndəsi tərəfindən alınması, habelə elektron sənədin saxlanılması ilə bağlı bu Təlimatda nəzərdə tutulmayan məsələlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 29-cu maddələrinin tələblərinə uyğun olaraq tənzimlənir.

## 4. İddia sənədləri barədə IPOA və PƏNAH sistemlərinə daxil edilən məlumatların strukturu və açar sözlər

**4.1.** Hər bir iddia sənədi barədə məlumatlar ayrıca elektron qovluqda yerləşdirilir. Elektron qovluğun adı iddia olunan obyektin adı ilə eyniyyət təşkil etməlidir.

**4.2.** İddia sənədinin adı və ya adın tərkib hissəsini təşkil edən söz(lər) onun axtarışının aparılması üçün açar söz hesab olunur. Hər bir sənaye mülkiyyəti obyekti barədə açar söz(lər) **İcraçı** tərəfindən **IPOA** sisteminə və paralel olaraq **PƏNAH** sisteminə (və ya əksinə) daxil edilməlidir.

**4.3. IPOA** və **PƏNAH** sistemlərində sənaye mülkiyyəti obyektləri üzrə axtarış iddia olunan obyektin adını əks etdirən açar söz(lər) vasitəsilə aparılır. Açar söz(lər)də aşkar edilən hər bir səhv və ya qeyri-dəqiqlik Sistem inzibatçısının iştirakı ilə İcraçı tərəfindən dərhal aradan qaldırılmalıdır.

**4.4. IPOA** və **PƏNAH** sistemlərində yerləşdirilən sənədlərdə, məlumatlarda və açar sözlərdə səhvlər və ya qeyri-dəqiqliklər ekspertiza mərhələsində aşkar edildikdə bu fakt rəsmiləşdirilərək **İcraçıya** və **Sistem inzibatçısına** təqdim olunmalıdır. Aşkar edilmiş səhvlərin, qeyri-dəqiqliyin məzmunu, aşkar edildiyi vaxt və şərait, səhvin kim tərəfindən müəyyən edildiyi nümunəsi bu Təlimata Əlavə 2-də göstərilən **"Elektron nəzarət kitabı"**nda İcraçı tərəfindən ardıcıllıqla qeyd edilməli və onların nəzərə alınması üçün ekspert məlumatlandırılmalıdır.

**4.5.** İş prosesində və ya sistemin monitorinqi zamanı sənədlərdə, məlumatlarda və açar sözlərdə səhvlər aşkar edildikdə, bu Təlimatın 6.1-ci bəndində göstərilən **IPOA** və **PƏNAH** sistemlərinin istifadəçisi **(bundan sonra - İstifadəçi)** tərəfindən sənədin statusu ilə bağlı "əməliyyat" səhv həyata keçirildikdə bu barədə Agentliyin rəhbərliyi məlumatlandırılmalı, yol verilmiş səhvin və ya yanlışlığın aradan qaldırılması üçün Sistem inzibatçısının nəzarəti altında məlumat bazasında müvafiq düzəlişlər aparılmalıdır.

**4.6. IPOA** sistemində axtarışı aparılan iddia sənədi üzrə yaradılan qovluğa daxil olmaq üçün sistemin 1-ci səhifəsində iddia sənədinə dair elektron qovluğun "pəncərə"sində iddia sənədinin nömrəsi, iddia olunan obyektin adı (açar söz(lər), növü, iddia sənədinin Agentliyə daxil olduğu tarix, iddiaçı fiziki şəxs olduqda adı, atasının adı, soyadı, faktiki yaşadığı və fəaliyyət göstərdiyi ünvanlar, hüquqi şəxs olduqda tam adı, hüquqi ünvanı, müəllif(lər), iddiaçı(lar), əmtəə nişanları üzrə əmtəə və ya xidmətlərin Nitsa təsnifatı üzrə qruplaşdırılmış siyahısı, iddia olunan nişanın təsviri (nişan təsvirlə müşayiət edildikdə) göstərilir.

**4.7.** Pəncərədə yuxarıdan sağ tərəfdə "DOSYE" sözü "siçan"ın ("mausun") sol düyməsi ilə basıldıqda (çıqqıldadıldıqda) paralel yerləşdirilən iki hissədən ibarət yeni səhifə açılır.

Pəncərənin sol tərəfində bu Təlimatın 3-cü hissəsində göstərilən sənədlərə (onların sistemə yerləşdirildiyi tarixlər qeyd edilməklə) dair məlumatlar ardıcıllıqla sadalanır. Bölmədə hər bir sənədin adı (ərizə, ərizəyə qoşulan sənədlərin adları (ixtiranın və ya faydalı modelin düsturu, təsviri, çertyoju, müəllif müqaviləsi, vəsatət (olduğu halda), ödəniş sənədi, iddia sənədinə dair sənədlər və s.), sənaye nümunəsinin çertyoju, təsviri, sənədin baxılmağa qəbul edilməsi barədə arayış, ekspertiza sorğusu, ekspertiza bildirişi, sorğuya və ya bildirişə cavablar, ekspertiza rəyi (qərarı) və s.) qeyd edilməli, müvafiq materiallar həmin aidiyyəti qovluqda daxil olduğu (göndərildiyi) tarixlər göstərilməklə yerləşdirilməlidir. Sənədlərin və məlumatların sistemdə yerləşdirildiyi tarix pəncərədə mütləq qeyd edilməlidir.

**4.8.** Pəncərənin sol tərəfində qeyd olunan hər bir məlumatın üzərinə "siçan"ın ("mausun") sol düyməsi ilə basıldıqda sağ tərəfdə həmin sənədə dair məlumatlar açılır. Bu məlumatlar istifadəçi tərəfindən baxıla və çap oluna bilər.

**4.9. IPOA** sistemində axtarış iddia olunan obyektin adını və ya adın tərkib hissəsi olan açar sözləri yazmaqla ***İntellectual Property Search Module*** (bundan sonra - **AzSearch**) modulu vasitəsi ilə aparılır. Axtarış zamanı AzSearch IPOA sisteminə istinad edərək iddia sənədinin adı, nömrəsi, hüquq sahibi və s. barədə məlumatları "tapır" və istifadəçiyə "təqdim edir".

**4.10.** AzSearch sistemində iddia sənədinin adı (açar söz və ya sözlər) düzgün qeyd edilmədikdə axtarış zamanı axtarılan sənaye mülkiyyəti obyekti barədə məlumatlar əldə olunmur.

**4.11.** Bu Təlimatın 4.6-4.9-cu bəndlərində **IPOA** sistemində göstərilən məlumatların müntəzəm olaraq paralel şəkildə **PƏNAH** sistemində yerləşdirilməsi öz səlahiyyətləri daxilində İcraçı, Mərkəzin İxtira, faydalı model və sənaye nümunəsinin ekspertizası şöbəsi və Əmtəə nişanları və coğrafi göstəricilərin ekspertizası şöbəsi tərəfindən bu Təlimatın 3-cü hissəsində müəyyən edilmiş qaydada və müddətdə təmin edilməlidir.

## 5. Sənədlərin və məlumatların IPOA və PƏNAH sistemlərinə yerləşdirilməsi, aşkar edilən səhvlərin düzəldilməsi və yeni məlumatların edilməsi

**5.1.** Sənədlər və məlumatlar **IPOA** və **PƏNAH** sistemlərinə bu Təlimatda müəyyən edilmiş qaydada və müddətdə İcraçı tərəfindən, ekspertiza mərhələsində yaradılan sənədlər (arayış,

sorğu, bildiriş, ekspertiza rəyi (qərarı), Müşahidə Şurasının qərarı və s.) isə Mərkəzin ekspertizanı həyata keçirən struktur bölmələri tərəfindən daxil edilir.

**5.2.** Düzgün tərtib edilmiş ərizəyə qoşulmuş iddia sənədinin daxilolma tarixinin dəyişdirilməsi, ərizədə düzəlişlərin aparılması, eyni iddia sənədinin daxilolma tarixinin **IPOA** və **PƏNAH** sistemlərində bir-birindən fərqli göstərilməsi və ya sistemin birində olan məlumatın digər sistemdə olmaması və ya tam olmaması, yaxud səhv göstərilməsi qəti qadağandır. **IPOA** və **PƏNAH** sistemlərində bu cür səhvlərə yol verilməsinə görə məsuliyyət İcraçının və icraçıların işinə birbaşa nəzarət edən Agentliyin İdarə Heyətinin sədrinin sənaye mülkiyyəti məsələləri üzrə müşavirinin və Sistem inzibatçısının üzərinə düşür.

**5.3.** Hər bir iddia sənədi üzrə məlumatlar **IPOA** və **PƏNAH** sistemlərində eyni olmalı və sənədləri qəbul edən İcraçı tərəfindən düzəlişlər aparılmadan sistemlərə daxil edilməli, iddia sənədinin verilməsi barədə ərizədə Agentlik tərəfindən doldurulmalı olan qrafalar sənədi qəbul edən İcraçı tərəfindən mütləq doldurulmalı, ərizədə iddia sənədinin daxil olduğu tarix və saat, iddia olunan obyektin növü üzrə eyniləşdirmə kodu və ardıcıl olmaqla nömrəsi (məsələn, a 2020 0001; U 2020 0001; S 2020 0000; 2020 00000; C 2020 0000) mütləq qeyd edilməli və iddia sənədinin qəbul edilməsi barədə bildiriş verilməlidir.

**5.4.** İddia sənədinə aid olmayan sənədlərin və məlumatların sistemə daxil edilməsinə yol verilmir. Belə hal aşkar olunduqda Sistem inzibatçısının iştirakı ilə İcraçı tərəfindən dərhal aradan qaldırılmalıdır.

**5.5.** Sənədlərin və məlumatların **IPOA** sistemindən **PƏNAH** sisteminə tam olaraq inteqrasiyasına və sonrakı mərhələlərdə bu prosesin davamlı olmasına nəzarət öz səlahiyyətləri daxilində Agentliyin İdarə Heyətinin sədrinin sənaye mülkiyyəti məsələləri üzrə müşaviri, Sistem inzibatçısı və Mərkəzin rəhbərliyi tərəfindən həyata keçirilir.

**5.6.** Sənədlər və məlumatlar **IPOA** və **PƏNAH** sistemlərinə yerləşdirilərkən İcraçı tərəfindən hüquqi nəticə doğuran səhvlərə yol verilməsi Məcəlləyə uyğun olaraq intizam məsuliyyətinə səbəb olur.

**5.7. IPOA** və **PƏNAH** sistemlərinə yerləşdirilmiş sənədlər və məlumatlar İcraçı tərəfindən kağız daşıyıcıda müvafiq struktur bölməyə göndərilməlidir (təqdim edilməlidir). Sənədlər və məlumatlar həmin struktur bölməyə aid olmadığı halda 3 (üç) iş günündən gec olmayaraq sənədləri və məlumatları almış struktur bölmə tərəfindən müəyyən edilmiş qaydada aidiyyəti struktur bölmənin rəhbərinə yönləndirilməli və bu barədə dərhal **İcraçıya** məlumat verilməlidir.

## 6. IPOA və PƏNAH sistemlərinin istifadəçilərinin dairəsi, istifadənin şərtləri və müddəti

**6.1.** İstifadəçilərin tərkibi aşağıdakılardan ibarətdir:

**6.1.1.** Agentliyin İdarə Heyətinin sədri, İdarə Heyətinin üzvləri;

**6.1.2.** Mərkəzin direktoru və direktor müavini;

**6.1.3.** Agentliyin İdarə Heyətinin sədrinin sənaye mülkiyyəti məsələləri üzrə müşaviri;

**6.1.4.** Mərkəzin direktorunun müşaviri, ekspertizanı həyata keçirən şöbələrin rəhbərləri, həmin şöbələrin strukturuna daxil olan sektorların müdirləri və ekspertlər;

**6.1.5.** Sistem inzibatçısı;

**6.1.6.** Agentliyin Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestri şöbəsinin müdiri;

**6.1.7.** Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasının sədri;

**6.1.8.** Agentliyin İdarə Heyətinin sədrinin xidməti tapşırıqlarının icrası ilə əlaqədar onun tərəfindən icazə verilmiş Agentliyin və Mərkəzin digər məsul işçiləri (tapşırığın icra edildiyi müddətdə);

**6.1.9. IPOA** sistemindən istifadəyə icazə Agentliyin İdarə Heyətinin sədrinin əmri ilə rəsmiləşdirilir. Əmrdə icazəni zəruri edən səbəblər, istifadənin müddəti (istifadənin başlanğıc və başa çatma tarixləri qeyd edilməklə), həcmi və istifadənin həyata keçirildiyi yer dəqiq göstərilməlidir.

**6.2. IPOA** və **PƏNAH** sistemlərindən yalnız xidməti tapşırıqların icrası ilə əlaqədar istifadə olunmalıdır. İstifadəçiyə hər bir sistem üzrə ayrıca "istifadəçi adı" və "şifrə" verilir. "İstifadəçi adı" və "şifrə" məxfi saxlanılır və onlardan yalnız İstifadəçi özü istifadə edə bilər.

**6.3.** Məsafədən iş rejiminə keçirildikdə **IPOA** və **PƏNAH** sistemlərindən istifadə zəruri olduğu hallarda Agentliyin İdarə Heyətinin üzvünün və ya Mərkəzin direktorunun əsaslandırılmış təqdimatı əsasında Agentliyin İdarə Heyətinin sədri ilə razılaşdırılmaqla Sistem inzibatçısı **IPOA** və **PƏNAH** sistemlərindən istifadə üçün texniki dəstəyin göstərilməsini təmin etməlidir. Digər hallarda IPOA və PƏNAH sistemlərindən məsafədən istifadə edilməsi qadağandır.

**6.4.** İstifadəçinin əmək müqaviləsinə xitam verildikdə və ya istifadəçi **IPOA** və **PƏNAH** sistemlərindən istifadə ilə əlaqəli olmayan başqa işə keçirildikdə onun "istifadəçi adı" və "şifrə"ləri ləğv olunur və aktla rəsmiləşdirilir.

Əvvəllər başqa istifadəçiyə verilmiş "istifadəçi adı" və "şifrə" bir daha başqa istifadəçiyə verilmir.

**6.5. IPOA** və **PƏNAH** sistemlərinin istifadəçisi "istifadəçi adı"nın və "şifrə"nin məxfiliyinin qorunması, sistemdə olan məlumatların yayılmaması və digər elektron daşıyıcıların yaddaşına köçürməməsi barədə yazılı öhdəlik götürür.

**6.6.** Ölkədə hərbi və ya fövqəladə vəziyyətlərin elan olunması, habelə pandemiya ilə əlaqədar əməkdaşlar məsafədən (evdən) işlədikdə xidməti məlumatlardan istifadə yazılı iltizam əsasında həyata keçirilir.

**6.7.** İstifadəçi tərəfindən **IPOA** və **PƏNAH** sistemlərində olan məlumatların digər elektron daşıyıcıların yaddaşına köçürülməsi, üçüncü şəxslərə ötürülməsi, onların silinməsi və dəyişdirilməsi qadağandır.

## 7. Sistem inzibatçısının vəzifələri

**7.1.** Sistem inzibatçısı **IPOA** və **PƏNAH** sistemlərinə daxil edilən məlumatların mühafizəsi, silinməsi, dəyişdirilməsi və Agentliyin rəhbərliyi ilə razılaşdırılmadan elektron daşıyıcıların yaddaşına yazılmasına görə şəxsən məsuliyyət daşıyır.

**7.2.** Sistem inzibatçısının vəzifələri aşağıdakılardan ibarətdir:

**7.2.1. IPOA** və **PƏNAH** sistemlərinin dayanıqlılığı, təhlükəsiz və fasiləsiz fəaliyyət göstərməsi üçün təşkilati və texniki tədbirlər görmək;

**7.2.2.** Sənədlərin və məlumatların **IPOA** və paralel olaraq **PƏNAH** (və ya əksinə) sistemlərinə yerləşdirilməsində ortaya çıxan texniki problemlərin dərhal aradan qaldırılmasını təmin etmək;

**7.2.3.** bu Təlimatın 6.1-ci bəndində göstərilən istifadəçilərin **IPOA** və **PƏNAH** sistemlərinə daxil edilmiş sənəd və məlumatlara "giriş"inə texniki dəstək göstərmək;

**7.2.4.** istifadəçilərə **IPOA** və **PƏNAH** sistemlərinin iş prinsipləri və funksional imkanları barədə məlumat vermək, onlara metodiki köməklik göstərmək;

**7.2.5. IPOA** və **PƏNAH** sistemlərinin fəaliyyətinin təkmilləşdirilməsi barədə Agentliyin rəhbərliyinə təkliflər vermək və bu sahədə səlahiyyətləri daxilində tədbirlər görmək;

**7.2.6.** məlumatların mühafizəsinə mütəmadi olaraq nəzarət etmək;

**7.2.7. IPOA** və **PƏNAH** sistemlərində olan məlumatların mühafizəsi məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirmək:

**7.2.7.1.** məlumatlara icazəsiz girişin qarşısını almaq;

**7.2.7.2.** məlumatlara giriş qaydalarının pozulması ilə bağlı İstifadəçiyə və ya pozuntuya yol vermiş digər şəxsə xəbərdarlıq etmək;

**7.2.7.3.** proqram texniki vasitələrin fəaliyyətini poza biləcək təsirlərin qarşısını vaxtında almaq;

**7.2.7.4.** icazəsiz giriş nəticəsində dəyişdirilmiş və ya məhv edilmiş məlumatların bərpasını dərhal təmin etmək və bu barədə Agentliyin rəhbərliyini məlumatlandırmaq;

**7.2.7.5.** İstifadəçinin əmək müqaviləsinə xitam verildikdə və ya **IPOA** və **PƏNAH** sistemlərindən istifadə ilə əlaqəli olmayan başqa işə keçirildikdə ona əvvəl verilmiş "istifadəçi adı" və "məxfi şifrə" vasitəsilə sistemə girişi dərhal bloklamaq;

**7.2.7.6.** iş günü ərzində daxil olan sənəd və məlumatlar **IPOA** və **PƏNAH** sistemlərinə yerləşdirilmədikdə sistemlərin bağlanmasına icazə verməmək;

**7.2.7.7.** iş gününün sonunda **IPOA** və **PƏNAH** sistemlərinin "***backup* copy"** funksiyasını həyata keçirmək.

## 8. İstifadəçinin fəaliyyəti

**8.1.** İstifadəçi **IPOA** və **PƏNAH** sistemlərindən yalnız təyinatı üzrə xidməti vəzifələrini həyata keçirmək üçün istifadə etməlidir.

**8.2.** İstifadəçi onun adından **IPOA** və **PƏNAH** sistemlərində aparılan hər bir əməliyyata görə şəxsən məsuliyyət daşıyır.

**8.3.** İstifadəçinin **IPOA** və **PƏNAH** sistemlərinə girişi Sistem inzibatçısı tərəfindən aşağıdakı hallarda məhdudlaşdırılır:

**8.3.1.** bu Təlimatın 8.1-ci bəndində nəzərdə tutulmuş öhdəliyə əməl edilmədikdə;

**8.3.2. IPOA** və **PƏNAH** sistemlərinə qeyri-qanuni daxil olmağa və ya müdaxiləyə görə müvafiq qanunvericiliyə uyğun olaraq təqsirli bilindikdə;

**8.3.3.** bu Təlimatda müəyyən edilmiş digər tələblər yerinə yetirilmədikdə.

## 9. Yekun müddəalar

**IPOA** sistemində mühafizə olunan məlumatların **Sistem inzibatçısı** tərəfindən davamlı olaraq **PƏNAH** sisteminə köçürülməsi ilə bağlı həyata keçirilən texniki tədbirlər və bu sahədə görülən digər işlər barədə ayda bir dəfədən az olmayaraq Agentliyin İdarə Heyətinin sədrinə məlumat verilir.